

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

13 avqust 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 30 (3793)


# Naxçıvanın yeni yüksəlişi



## Qədim diyar böyük quruculuq və strateji yüksəliş mərhələsinə qədəm qoyur

**Avqustun 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvanda bir sıra mühüm sosial, iqtisadi, enerji, nəqliyyat, hərbi və şəhərsalma layihələri ilə tanış olub, açılış və təməlqoyma mərasimlərində iştirak ediblər.**

Səfər çərçivəsində Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi ziyarət olunub. Prezident və birinci xanım ümumi gücü 50 MVt olan “Şəms 1” və “Qərbi Üfüq” Günəş Elektrik stansiyalarında görülən işlərlə tanış olublar.

Səfər zamanı 310 hektar ərazini əhatə edəcək Naxçıvan Sənaye Parkının, 518 mənzildən ibarət sosial evlər kompleksinin və 307 qonaq tutumuna malik “Naxçıvan” Mehmanxana Kompleksinin təməli qoyulub.

Dövlət başçısı və birinci xanım Naxçıvanın nəqliyyat infrastrukturunun yenilənməsi ilə də tanış olublar. Uzunluğu 194,2 kilometr olacaq dəmir yolu xəttinin yenidən qurulması, 10 stansiya və 3 sərnişin platformasının yenilənməsi nəzərdə tutulur. Naxçıvan şəhərinin ictimai nəqliyyatı üçün ölkədə yığılan 60 elektrik mühərrikli “BYD” avtobusu alınıb.

Naxçıvan Regional DOST Mərkəzinin açılışı da olub. Mərkəzdə 164 sosial xidmətin göstərilməsi və gündə 500-600 vətəndaşın qəbulu nəzərdə tutulur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Əlahiddə Ümumqoşun Orduda yeni yaradılmış əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının təqdim olunması mərasimində də iştirak ediblər.

Səfər çərçivəsində “Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı” təqdim olunub, Möminə xatun türbəsində aparılan bərpa və konservasiya işlərinə baxış keçirilib. “Əcəmi seyrangahı”nda görkəmli memar Əcəmi Naxçıvaninin abidəsinin açılışı olub.

Naxçıvanda Azərbaycan Televiziyasına müsahibə verən Prezident Naxçıvanın təhlükəsizliyinin daim prioritet olduğunu bildirib. Əlahiddə Ümumqoşun Ordunun hərbi potensialının gücləndirildiyini, müasir texnika ilə təchizatın davam etdiyini və yeni komando qüvvələrinin yaradıldığını qeyd edib.

İqtisadi inkişafın əsas istiqamətlərindən biri kimi Naxçıvan Sənaye Parkını göstərən dövlət başçısı onun 310 hektarlıq ərazisinə görə ölkədə Sumqayıt Sənaye Parkından sonra ikinci olacağını, burada 300 meqavat gücündə istilik elektrik stansiyasının tikintisinin də nəzərdə tutulduğunu deyib. Naxçıvanın Günəş enerjisi potensialına xüsusi diqqət çəkən Prezidentin sözlərinə görə, muxtar respublikada təkcə Günəş enerjisi üzrə istehsal gücü ən azı 500 meqavata, perspektivdə isə 1000 meqavata çata bilər.

Müsahibədə əsas mövzulardan biri Zəngəzur dəhlizi olub. Prezident bildirib ki, Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirmək uzun illərdir qarşıya qoyulan strateji hədəfdir. Dövlət başçısının sözlərinə görə, 2025-ci il avqustun 8-də Vaşinqton Zirvə Görüşündə TRIPP layihəsi ilə bağlı mühüm razılaşma əldə olunub və layihənin icrasına başlanılıb.

Naxçıvanın sosial və nəqliyyat infrastrukturu ilə bağlı yeni layihələr də açıqlanıb. Dövlət başçısı Naxçıvan, Qarabağ və Şərqi Zəngəzurun vahid inkişaf konsepsiyası əsasında inkişaf etdiriləcəyini bildirib. Bu üç bölgənin yaşıl enerji, müasir infrastruktur və yeni idarəetmə modeli əsasında formalaşdırılması qarşıya qoyulan əsas strateji hədəflər sırasındadır.

# Polis etikası hüquqi dövlətin mənəvi sütunudur

## Polis vətəndaşın təhlükəsizliyini təmin etməklə yanaşı, onun güvən yeridir

Müasir dövrdə dövlət idarəçiliyinin effektivliyi yalnız qəbul edilən qanunlarla və ya həyata keçirilən islahatlarla ölçülmür. Dövlət-vətəndaş münasibətlərinin səviyyəsi, cəmiyyətin dövlət institutlarına olan inamı, hüququn aliliyinin təmin olunması və insan hüquqlarının etibarlı müdafiəsi demokratik inkişafın ən mühüm göstəricilərindəndir. Bu baxımdan polis orqanlarının fəaliyyətində etik davranış prinsiplərinə əməl olunması, şəffaflığın təmin edilməsi və ictimai etimadın qorunması dövlət idarəçiliyinin strateji prioritetlərindən biri hesab edilir.

*(Ardı 2-ci səhifədə)*

# Təhlükəsiz Qarabağ – inkişaf edən turizm

## Polis azad edilmiş ərazilərdə təhlükəsizliyin təminində mühüm rol oynayır

Turizm təhlükəsizliklə sıx bağlıdır. Hər nə qədər turizm deyiləndə insanın təsəvvüründə gəzməli-görməli yerlər, istirahət üçün əlverişli infrastruktur, əsrarəngiz təbiət mənzərələri canlansa da, əmin-amanlıq olmadan heç kim bunlardan zövq almaq üçün həyatını riskə atmaq istəməz. Bu, ölkə daxilində səyahət edənlərə də, xaricdən gələn turistlərə də aiddir. Bir ölkədə sabitlik və əmin-amanlıq hökm sürmürsə, daxili qarşıdurmalar, terror təhlükəsi və yüksək kriminal vəziyyət gündəlik həyatın bir hissəsi sayılırsa, həmin məkan nə qədər zəngin turizm potensialına malik olsa da, cəlbediciliyini itirir.

*(Ardı 2-ci səhifədə)*

# Prezidentlərin sülh gündəliyi

## Liderlər arasında telefon danışığı olub

Avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyevlə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp arasında telefon danışığı olub.

Telefon söhbəti zamanı Vaşinqton Zirvə Görüşünün ildönümü münasibətilə məmnunluq ifadə olunub, Vaşinqton sülh zirvəsi və ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Birgə Bəyannamənin və Azərbaycanla Ermənistan arasında dövlətlərarası münasibətlərin qurulması ilə bağlı sazişin paraflanmasının regionda münaqişəyə son qoyduğu və sülhü təsbit etdiyi vurğulanıb. Donald Tramp sülh prosesində Prezident İlham Əliyevin rolunu yüksək qiymətləndirib.

Dövlət başçıları, həmçinin ikitərəfli gündəliyə aid məsələləri müzakirə ediblər.

# Prezident həmkarına təşəkkür edib

## Xalqlarımız hər zaman bir-birinin yanındadır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana təşəkkür edib. Bu barədə Azərbaycan Prezidentinin X səhifəsindəki paylaşımında deyilir: “Cənab Prezident Məsud Pezeşkian, Azərbaycan haqqında söylədiyiniz xoş və səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Azərbaycan və İran xalqları dar və çətin günlərdə hər zaman bir-birinin yanında olublar. Bölgəmizdə baş vermiş son hadisələr fonunda Azərbaycanın qardaş İran xalqının yanında olduğu bir daha özünü göstərdi”.

# Sülh prosesində mühüm irəliləyiş

## Bakı və İrəvan əldə olunan nəticələri və sülhün iqtisadi faydalarını müzakirə ediblər

Avqustun 8-də Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefon zəngi zamanı iki ölkə arasında Sülh Sazişinin mətninin ilkin paraflanması ilə bağlı fikir mübadiləsi aparılıb.

Tərəflər ötən il ərzində Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində əldə olunmuş irəliləyişi qeyd ediblər. İki ölkə arasında iqtisadi və ticari əlaqələrin inkişafının sülhün faydalarının konkret təzahürü olduğu vurğulanıb. Bundan əlavə, Vaşinqtonda əldə edilmiş razılaşmalara uyğun olaraq TRIPP marşrutunun icrası ilə bağlı fikir mübadiləsi aparılıb. Tərəflər sülh prosesinin irəlilədilməsi və regionda davamlı sülhün, sabitliyin, o cümlədən bağlantıların və iqtisadi əməkdaşlığın təmin olunması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini vurğulayıblar.


**Velosipedçi məsuliyyəti** 3





**Bir anlıq etibar təhlükəyə səbəb oldu** 3





**KMBİ-dən növbəti uğurlu əməliyyat** 3





**QR-kodun arxasında nə var?** 4




# Respublika Xəbərləri

### Kibertəhlükəsizlik sahəsində yeni öhdəliklər

Prezident İlham Əliyevin təsdiqlədiyi qanun dəyişiklikləri ilə internet informasiya ehtiyatlarının sahibləri, internet və host provayderlər üçün kibertəhlükəsizlik sahəsində yeni öhdəliklər müəyyən edilib. Qanunda kibertəhdidlərin, kiberhücumların və kiberinsidentlərin aşkarlanması, qarşısının alınması və aradan qaldırılması üzrə mexanizmlər təsbit olunub. Həmçinin informasiya infrastrukturlarının kibertəhlükəsizliyi, monitorinq və auditlərin aparılması, kiberinsidentlər barədə məlumat mübadiləsi ilə bağlı yeni müddəalar müəyyən edilib.

### Qarabağda neçə layihə icra edilib?

Bu ilin I yarısında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 340 layihə icra edilib. Layihələrin icrasına 1 milyard 64,1 milyon manat xərclənib ki, bu da faktiki ayırmaların 30,4 faizini təşkil edib. İcra edilən layihələrin 76-sı nəqliyyat, 36-sı su təsərrüfatı və meliorasiya, 11-i energetika və sənaye, 19-u müdafiə və hüquq-mühafizə, 182-si sosial, 16-sı isə sair layihələr olub.

### Tranzit daşımalarda rekord

Cari ilin ilk 7 ayında tranzit daşımaların həcmi 9,1 milyon tonu ötərək son 5 ilin rekord səviyyəsinə yüksəlib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 11,6 faiz çoxdur. Tranzit yükdaşımaların həcmi Şərq-Qərb istiqamətində 16,5 faiz, Şimal-Cənub istiqaməti üzrə isə 14,3 faiz artıb.

### Media və Yayım Şurası yaradılıb

“Dövlət qulluğu haqqında” və “Media haqqında” qanunlara edilən dəyişikliklərə əsasən, Medianın İnkişafı Agentliyi və Audiovizual Şuranın əsasında Media və Yayım Şurası yaradılıb. Şura media və yayım sahəsində səlahiyyətli dövlət orqanı olacaq və kollegial idarəetmə modelini əsas götürəcək. Media və Yayım Şurasının strukturu da təsdiqlənib.

### Mikromobillik artır

Son iki ildə Bakıda velosiped və elektrikli skuterlər 6,9 milyon dəfədən çox sifariş olunub, istifadəçilər isə 18 milyon km-ə yaxın məsafə qət ediblər. Bu ilin 7 ayında mikromobillik vasitələri 2 297 405 dəfə sifariş olunub və 1 160 228 istifadəçi tərəfindən 4 918 839 km məsafə qət edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə sifariş və istifadəçi sayında 1,2 dəfə artım deməkdir.

### “Şəfəq”də işlər sürətlənir

BP şirkəti Cəbrayıl rayonunda həyata keçirilən “Şəfəq” günəş enerjisi layihəsi çərçivəsində ilk elektrik avadanlığını tikinti sahəsinə çatdırıb. Bu, yaxın həftələrdə elektrik quraşdırma işlərinə başlanmasına imkan verəcək. Hazırda layihədə 420-yə yaxın yerli əməkdaş çalışır, onların 150-si işğaldan azad edilmiş ərazilərdə məskunlaşan sakinlərdir.

### Sığortaedənlərin sayı artıb

Bu ilin yanvar-iyul aylarında fərdi uçot sistemində qeydə alınan sığortaedənlərin sayı 53,9 min vahid artaraq 2,27 milyon olub. Artım hüquqi şəxslər üzrə 7,7 min, fiziki şəxslər üzrə 43,2 min, torpaq mülkiyyətçiləri üzrə isə 2,9 min vahid təşkil edib.

### Xəzər dənizinin dibi ilə yeni kabel xətti çəkilib

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən “Rəqəmsal İpək Yolu” layihəsi çərçivəsində Xəzər dənizinin dibi ilə ilk fiber-optik kabelin çəkilməsi başa çatıb. “AzerTelecom” və “Kazakhtelecom” tərəfindən icra olunan layihə üzrə Sumqayıtdan Aktau istiqamətində 380 km uzunluğunda sualtı fiber-optik kabel xətti çəkilib. Hazırda kabel xəttinin sahilyanı infrastrukturla inteqrasiyası və yerüstü infrastrukturun tikintisi davam edir.

### Sosial ödənişlər təyin edilib

Bu ilin yanvar-iyul aylarında Azərbaycanda 86,1 min nəfərə proaktiv qaydada sosial müavinət və təqaüd təyin olunub. Onların 52,8 faizini kişilər, 47,2 faizini isə qadınlar təşkil edib.

### Bu yolda yeni texniki vasitələr quraşdırılıb

DİN-in Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən paytaxtın Zığ-Hövsan-Hava limanı yolunda nəqliyyat vasitələrinin hərəkət intensivliyi ilə bağlı məlumatlar toplayan və texniki göstəricilərin yol hərəkətinin təşkili, nəqliyyat axınının təhlili və idarə olunması prosesində istifadəsinə imkan verən müasir texniki avadanlıqlar quraşdırılaraq istismara verilib.

# Polis etikası hüquqi dövlətin mənəvi sütunudur

## Polis vətəndaşın təhlükəsizliyini təmin etməklə yanaşı, onun güvən yeridir

*(Əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı dövlət idarəçiliyi islahatları hüquq-mühafizə sisteminin də müasir çağırışlara uyğun təkmilləşdirilməsini, vətəndaş məmnunluğunun artırılmasını, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsini və polis-vətəndaş münasibətlərinin yeni keyfiyyət mərhələsinə yüksəldilməsini təmin etmişdir. Dövlət başçısının dəfələrlə vurğuladığı kimi, hər bir dövlət qulluqçusu, o cümlədən polis əməkdaşı xalqa xidmət etməli, qanunun aliliyini təmin etməli və cəmiyyətin etimadını daim doğrultmalıdır. Polis etikası hüquq-mühafizə fəaliyyətinin ayrılmaz hissəsidir. Etika yalnız peşə davranışını müəyyən edən qaydalar toplusu deyil, həm də hüquqi dövlətin mənəvi dayaqlarından biridir.

### *Polis əməkdaşının mədəni davranışı onun xidmətinin əsas meyarıdır*

Polis əməkdaşının peşəkar biliyi ilə yanaşı, vicdanlılığı, obyektivliyi, qərəzsizliyi, məsuliyyəti, insanlara hörmətlə yanaşması və yüksək mədəni davranışı onun fəaliyyətinin əsas meyarları hesab olunur.

Təcrübə göstərir ki, polisə olan ictimai etimad heç vaxt yalnız cinayətkarlıqla mübarizənin nəticələri ilə formalaşmır. İnsanlar polisə ilk növbədə onun davranışına, münasibətinə, qanuna sadiqliyinə və şəffaf fəaliyyətinə görə qiymət verirlər. Məhz buna görə etik standartların qorunması hüquq-mühafizə orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən biri kimi qəbul edilir. Birləşmiş Millətlər Təşkilatının “Hüquq-mühafizə orqanlarının vəzifəli şəxslərinin davranış kodeksi”, Avropa Şurasının polis etikası üzrə tövsiyələri, ATƏT-in hüquq-mühafizə sahəsində qəbul etdiyi prinsiplər polis fəaliyyətində qanunçuluq, insan hüquqlarına hörmət, hesabatlılıq və şəffaflığın təmin edilməsini prioritet istiqamətlər kimi müəyyənləşdirir. Azərbaycan da bu prinsiplərə uyğun olaraq milli qanunvericiliyini və institusional mexanizmlərini davamlı şəkildə təkmilləşdirir. Müasir polis modelinin əsas xüsusiyyətlərindən biri “güc nümayiş etdirən polis” deyil, “xidmət göstərən, vətəndaşın güvən yeri olan polis” anlayışının ön plana çıxmasıdır. Polis artıq yalnız ictimai asayişi qoruyan qurum deyil, eyni zamanda vətəndaşın təhlükəsizliyinin təminatçısı, hüquqlarının müdafiəçisi və dövlətlə cəmiyyət arasında etibarlı körpü rolunu yerinə yetirən təsisatdır. İctimai etimad hüquq-mühafizə sisteminin ən mühüm kapitalıdır. Bu etimad illərlə formalaşır, lakin bir yanlış davranış nəticəsində ciddi zərbə ala bilər. Buna görə də polis əməkdaşının hər bir davranışı yalnız onun şəxsi məsuliyyəti deyil, bütövlükdə dövlətə və hüquq-mühafizə sisteminə olan münasibəti formalaşdıran amildir. Etimadın formalaşmasının əsas şərtlərindən biri vətəndaşla polis arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlərdir. Vətəndaş polis əməkdaşında ilk növbədə qanunun aliliyinə sadiq, obyektiv, ədalətli və peşəkar dövlət nümayəndəsini görməlidir.

### *Şəffaflıq müasir idarəetmədə əsas prinsiplərdən biridir*

Polis hər bir müraciətə həssas yanaşmalı, insan hüquqlarına hörmət etməli, vətəndaşlarla etik davranış normalarına uyğun ünsiyyət qurmalıdır. Bu baxımdan son illərdə Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilən institusional islahatlar xüsusi diqqətə layiqdir. Vətəndaşlara təqdim olunan elektron xidmətlərin genişləndirilməsi, rəqəmsal idarəetmə sistemlərinin tətbiqi, onların müraciətlərinə operativ baxılması, daxili nəzarət mexanizmlərinin gücləndirilməsi, xidmət keyfiyyətinin artırılması və ictimaiyyətlə kommunikasiyanın təkmilləşdirilməsi şəffaflığın yüksəldilməsinə mühüm töhfə vermişdir. Şəffaflıq müasir idarəetmənin əsas prinsiplərindən biridir. Şəffaf fəaliyyət korrupsiya risklərini minimuma endirir, qərarların obyektivliyini artırır, vətəndaş məmnunluğunu yüksəldir və dövlət institutlarına etimadı möhkəmləndirir. Polis sistemində şəffaflıq yalnız maliyyə və inzibati məsələlərlə məhdudlaşmır. Buraya vətəndaş müraciətlərinin araşdırılması, intizam tədbirlərinin tətbiqi, informasiya açıqlığı və ictimai hesabatlılıq da daxildir.

### *Rəqəmsal transformasiya polis xidmətində yeni imkanlar yaradıb*

Ümumiyyətlə, elektron xidmətlər, videomüşahidə sistemləri, avtomatlaşdırılmış informasiya bazaları, onlayn müraciət platformaları və müasir informasiya texnologiyaları həm insan amilindən irəli gələn riskləri azaldıb, həm də vətəndaşların xidmətlərə daha rahat çıxışını təmin edib. İctimai nəzarət mexanizmlərinin inkişaf etdirilməsi də etimadın möhkəmlənməsində mühüm rol oynayır. Dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının, media nümayəndələrinin və ekspertlərin əməkdaşlığı hüquq-mühafizə sistemində şəffaflığın və hesabatlılığın daha da gücləndirilməsinə xidmət edir. Bu əməkdaşlıq qarşıdurma deyil, qarşılıqlı etimad və ümumi təhlükəsizlik naminə tərəfdaşlıq modelinə əsaslanmalıdır. Xüsusilə sosial şəbəkələrin sürətlə inkişaf etdiyi müasir informasiya məkanında polis fəaliyyətinin cəmiyyətə düzgün təqdim olunması böyük əhəmiyyət daşıyır. Dezinformasiyanın, manipulyativ məlumatların və məqsədli informasiya təxribatlarının qarşısının alınması üçün operativ, dəqiq və şəffaf kommunikasiya dövlət təhlükəsizliyinin də mühüm elementinə çevrilmişdir. Polis etikası həm də korrupsiyaya qarşı mübarizənin mühüm vasitələrindən biridir. Şəxsi maraqların dövlət maraqlarından üstün tutulmaması, xidməti səlahiyyətlərdən qanunsuz istifadə edilməməsi, qanun qarşısında bərabərlik prinsipinin qorunması etik davranışın əsas tələblərindəndir. Bu istiqamətdə mütəmadi peşə hazırlığı, etik təlimlər və daxili nəzarət mexanizmlərinin gücləndirilməsi yüksək nəticələr verir. Peşəkarlığın artırılması etik davranışın davamlılığını təmin edən vacib amillərdəndir. Müasir dövrdə polis əməkdaşından yalnız hüquqi bilik deyil, psixoloji hazırlıq, kommunikasiya bacarığı və rəqəmsal savadlılıq da tələb olunur. Bu keyfiyyətlər polis-vətəndaş münasibətlərinin daha sağlam əsaslar üzərində qurulmasına imkan yaradır. Bu əməkdaşlıq zamanı etik davranış, beynəlxalq hüquqa hörmət və insan hüquqlarının qorunması Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsinə xidmət edir. Polisin nüfuzu yalnız hüquqi səlahiyyətlərdən deyil, mənəvi nüfuzdan qaynaqlanır. Dövlətə sədaqət, xalqa xidmət, qanuna hörmət və yüksək etik məsuliyyət polis peşəsinin ayrılmaz xüsusiyyətləridir. Məhz bu dəyərlər cəmiyyətlə hüquq-mühafizə orqanları arasında qarşılıqlı etimad mühitini formalaşdırır.

Ümumilikdə demək olar ki, polis etikası, ictimai etimad və şəffaflıq bir-birini tamamlayan strateji anlayışlardır. Buna görə DİN rəhbərliyi tərəfindən bu meyarlar daim diqqət mərkəzində saxlanılır. Etik davranış şəffaflığı gücləndirir, şəffaflıq ictimai etimadı artırır, ictimai etimad isə hüquq-mühafizə fəaliyyətinin səmərəliliyini yüksəldir. Qarşıdakı illərdə də polis orqanları sistemində etik dəyərlərin möhkəmləndirilməsi, şəffaf idarəetmənin genişləndirilməsi, ictimai dialoqun gücləndirilməsi və vətəndaş yönümlü xidmət modelinin inkişaf etdirilməsi Azərbaycanın hüquqi dövlət quruculuğu siyasətinin mühüm istiqamətlərindən biri olaraq qalacaq. Bu isə güclü dövlət, təhlükəsiz cəmiyyət və yüksək vətəndaş etimadına əsaslanan dayanıqlı inkişaf modelinin daha da möhkəmlənməsi deməkdir.

# Təhlükəsiz Qarabağ – inkişaf edən turizm

## Polis azad edilmiş ərazilərdə təhlükəsizliyin təminində mühüm rol oynayır

*(Əvvəli 1-ci səhifədə)*

Bunu dünyanın müxtəlif bölgələrində baş verən hadisələrin timsalında aydın görmək mümkündür. Təhlükəsizliyin, sabitliyin turizmin inkişafının vazkeçilməz şərtlərindən biri olduğunu “sabitlik adası” kimi tanınan Azərbaycana turist marağının ildən -ilə artması da misal göstərə bilərik.

Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən, bölgədə geosiyasi çəkisinin və ölkəmizə beynəlxalq marağın artmasından sonra turizmin daxili coğrafiyasında da mühüm dəyişikliklər baş verib. Qarabağ və Şərqi Zəngəzur artıq insanların daha çox üz tutduğu istiqamətlər sırasındadır. Bir vaxtlar terrorun və separatizmin yuvasına çevrilmiş bu ərazilərə Böyük Qayıdışla həyat yenidən öz məcrasına düşür, şəhər və kəndlər dirçəlir, yollar çəkilir, turizm infrastrukturu yaradılır.

Yeri gəlmişkən, Dövlət Turizm Agentliyinin məlumatına görə, 2026-cı ilin ilk rübündə Azərbaycanın bir sıra rayonlarında turizm göstəricilərində yüksək artım qeydə alınıb.



Ən yüksək dinamika isə işğaldan azad edilmiş ərazilərdə müşahidə olunub.

Turizm gəlirlərinin artım tempinə görə Cəbrayıl ilk sırada qərarlaşıb. Rayonda gəlirlər ötən ilin eyni dövrü ilə müqayisədə 320 faiz artaraq 226,7 min manatdan 952,7 min manata yüksəlib. Füzulidə artım 239 faiz, Zəngilanda 160 faiz, Laçında 126 faiz, Şuşa və Ağdamda isə 97 faiz təşkil edib.

Turist sayındakı artım daha böyük rəqəmlərlə ifadə olunur. Cəbrayıla səfər edənlərin sayı ötən ilin ilk rübündəki 914 nəfərdən 8 min 215 nəfərə yüksəlib. Bu, 799 faiz artım deməkdir. Zəngilanda turistlərin sayı 929 nəfərdən 6 min 290 nəfərə, Füzulidə 3 min 290 nəfərdən 16 min 563 nəfərə, Ağdamda 7 min 629 nəfərdən 21 min 312 nəfərə, Şuşada isə 15 min 279 nəfərdən 36 min 255 nəfərə çatıb.

Bu ərazilərdə aparılan geniş quruculuq işləri, yeni yollar, otellər və digər turizm obyektləri turistlərin diqqətini çəkir, təbii ki. Ancaq insanlar ilk növbədə həmin ərazilərə təhlükəsiz səfər edə biləcəklərinə də inanırlar. Turist getdiyi yerdə öncə özünün, ailəsinin və əmlakının təhlükəsizliyinə əmin olmaq istəyir. Bu inamı isə polis əməkdaşlarının xidməti formalaşdırır.

Bu gün Şuşaya, Laçına, Ağdama, Füzuliyə, Cəbrayıla və Zəngilana səfər edən minlərlə insan özünü tamamilə təhlükəsiz hiss edir. Küçədə rahat gəzmək, avtomobili arxayın saxlamaq, ailə ilə şəhərlərdə rahat hərəkət etmək, lazım gəldikdə polis əməkdaşından kömək ala bilmək Qarabağ və Şərqi Zəngəzurun turizm potensialına güclü inam qatır. Özünü təhlükəsiz hiss edən turist həmin yerə yenidən qayıtmağa və onu başqalarına tövsiyə etməyə daha meyilli olur.

Bir sözlə, işğaldan azad edilmiş ərazilərdə turist sayının yüzlərlə faiz artması bu torpaqların qısa müddətdə yeni turizm məkanlarına çevrilməsində qurulan infrastruktur qədər sabit və təhlükəsiz mühitin qorunması da əsas rol oynayır. İnsanlar illərlə həsrət qaldıqları torpaqlara gəlir, şəhərləri gəzir, tarixi və təbiəti ilə tanış olur. Polis isə onların bu səfəri təhlükəsiz və rahat başa vurması üçün xidmətini fasiləsiz davam etdirir.

*Rəşad Mehtiyev*

# İstirahət məkanlarında nəzarət gücləndirilib

### Bu məqsədlə ərazilərə əlavə naryad qrupları təhkim olunub







İsti hava şəraiti ilə əlaqədar vətəndaşların çimərliklərə, su hövzələrinə və digər istirahət məkanlarına kütləvi axını nəzərə alınaraq, polis əməkdaşlarının həmin ərazilərdə fasiləsiz xidməti davam etdirilir.

Paytaxt Bakı ilə yanaşı respublikanın bütün turizm zonalarında asayişin və təhlükəsizliyin təmin olunması, eləcə də nəqliyyatın hərəkətinin davamlılığı məqsədilə əlavə naryad qrupları həmin ərazilərə təhkim olunub.

Polis əməkdaşları ictimai asayişin qorunması ilə yanaşı, vətəndaşların təhlükəsiz istirahətinin təmin edilməsi, mümkün xoşagəlməz halların qarşısının alınması və zərurət yarandıqda operativ müdaxilənin həyata keçirilməsi istiqamətində gücləndirilmiş rejimdə xidmət aparırlar.

Vətəndaşlardan istirahət zamanı təhlükəsizlik qaydalarına, xüsusilə də çimərliklərdə müəyyən edilmiş qaydalara ciddi riayət etmələri, uşaqları nəzarətsiz qoymamaları, ictimai asayişi pozan davranışlardan çəkinmələri xahiş olunur.

Polis əməkdaşlarının qanuni tələblərinə əməl etməklə yanaşı, hər hansı təhlükəli və ya şübhəli hal müşahidə etdikdə dərhal polisə məlumat vermələri tövsiyə edilir. Bununla da istirahət məkanlarında vətəndaşların tam təhlükəsiz şəraitdə istirahət etmələri təmin edilir.

# Velosipedçi məsuliyyəti

### Onlar da yol hərəkəti qaydalarına ciddi əməl etməlidirlər



Son illər ölkəmizdə velosipeddən istifadə edənlərin sayının artması yol hərəkətinin bu iştirakçılarına da xüsusi diqqət yetirilməsini zəruri edir. Velosiped həm sağlam həyat tərzinin təşviqi, həm də nəqliyyat vasitələrindən istifadənin azaldılması baxımından müsbət əhəmiyyət daşısa da, onun idarə olunması zamanı təhlükəsizlik qaydalarına əməl edilməsi olduqca vacibdir.

Buna görə də yol hərəkətinin digər iştirakçıları kimi velosipedçilər də yol hərəkəti qaydalarına riayət etməli, həm özlərinin, həm də digər hərəkət iştirakçılarının təhlükəsizliyinə məsuliyyətlə yanaşmalıdırlar. Qaydalara etinasız münasibət velosipedçilər, sürücülər və piyadalar üçün qəza riskinin artmasına və müxtəlif ağır nəticələrin yaranmasına səbəb ola bilər. Müşahidələr göstərir ki, bəzi hallarda velosipedçilərin diqqətsiz davranışları, təhlükəli manevrləri, yol hərəkəti qaydalarının tələblərinə əməl etməmələri, həmçinin yollarda xüsusi ayrılmış zolaqdan kənar nəqliyyat axınına əks istiqamətdə hərəkət etmələri qəza şəraitinin yaranması ilə nəticələnir.

Bu baxımdan velosiped sürərkən mobil telefondan istifadə etmək, xüsusilə əlləri sükandan çəkərək telefonla danışmaq yolverilməzdir. Belə davranış diqqətin yayındırılmasına, velosiped üzərində nəzarətin itirilməsinə və qəza riskinin artmasına səbəb ola bilər.

İstiqamət dəyişdirilərkən və yolayrıclarında dönərkən qəfil manevrlərdən çəkinilməli, nəzərdə tutulan manevr barədə digər hərəkət iştirakçıları əvvəlcədən əl işarələri ilə xəbərdar edilməlidir.

Xüsusi velosiped zolaqlarının mövcud olduğu ərazilərdə həmin zolaqlardan istifadə olunmalıdır. Belə imkan olmadıqda isə yol hərəkəti qaydalarının tələblərinə uyğun olaraq yolun hərəkət hissəsinin sağ kənarı ilə hərəkət edilməlidir.

Velosipedçilər təhlükəsizlik məsələlərinə diqqətlə yanaşmalı, hərəkət zamanı diqqəti yayındıran davranışlardan çəkinməli və yol hərəkətinin digər iştirakçılarına qarşılıqlı hörmət nümayiş etdirməlidirlər. Unutmaq olmaz ki, yolda bir anlıq ehtiyatsızlıq və ya yol hərəkəti qaydalarına laqeyd münasibət ilk növbədə velosipedçinin özünün həyat və sağlamlığı üçün risk yaradır. Velosiped avtomobillərdən fərqli olaraq hər hansı metal konstruksiya ilə əhatə olunmur, əlavə təhlükəsizlik avadanlıqları qəza anında sürücünü sığortalamır. Buna görə də velosiped idarə edən şəxsin qoruyucu dəbilqə (kaska) geyinəsi, habelə yol hərəkəti qaydalarına daha həssas əməl etməsi həm özü, həm də digər hərəkət iştirakçılarının həyatı və sağlamlığı üçün vacibdir.

# Bir anlıq etibar təhlükəyə səbəb oldu

### Kiberdələduzlardan qorunmaq üçün diqqətli olmaq vacibdir

***Texnologiyanın sürətli inkişafı sayəsində artıq bir çox işimizi mobil telefon vasitəsilə həll edir, bank əməliyyatlarından tutmuş müxtəlif xidmətlərdən istifadəyə qədər çeşidli imkanlardan bir neçə toxunuşla yararlanırıq. Lakin texnologiyanın yaratdığı rahatlıqlarla yanaşı, müəyyən təhlükələr də mövcuddur. Xüsusilə şəxsi məlumatlardan düzgün qorunmaması, tanımadığımız şəxslərə telefonun və ya digər elektron cihazların verilməsi ciddi maddi itkilərlə nəticələnə bilər.***

Belə hallarda həssas təbəqələrdən biri də yaşlı insanlardır. Çünki onların bir qismi müasir smartfonlardan, mobil tətbiqlərdən və onlayn bank xidmətlərindən istifadə etməyə son illərdə başlayıb.

**►"102"-yə daxil olan müraciət**

Yaxın günlərdə 102 Xidməti-Zəng Mərkəzinə daxil olan müraciətlərdən biri də bu baxımdan diqqət çəkib. Yaşlı şəxs müraciət edərək bildirib ki, ona yaxınlaşan gənc telefonla zəng etmək üçün smartfondan istifadə etməyi xahiş edib. Qarşı tərəfin istəyini adi və xoş niyyətli müraciət kimi qəbul edən yaşlı şəxs heç bir pis niyyət düşünmədən telefonunu həmin şəxsə verib. Lakin sonradan məlum olub ki, cihazdan istifadə edən şəxs telefonda olan şəxsi məlumatlara daxil olub və nəticədə zərərçəkən şəxsin pul vəsaiti ələ keçirilib. Məsələ ilə bağlı "102"-yə edilən müraciət əsasında polis əməkdaşları tərəfindən araşdırma aparılıb. Keçirilən tədbirlər nəticəsində hadisəni törədən şəxs müəyyən edilərək müvafiq tədbir görülüb və zərərçəkənin pulunun geri qaytarılması təmin edilib.




**►Yaşlı insanların maarifləndirilməsi xüsusi əhəmiyyət daşıyır**

Belə halların qarşısının alınmasında maarifləndirmə mühüm rol oynayır. Xüsusilə yaşlı insanların yeni texnologiyalardan istifadə zamanı diqqətli olmaları, tanımadıqları şəxslərə şəxsi məlumatlarını və mobil cihazlarını etibar etməmələri vacibdir. Polis əməkdaşları tərəfindən vətəndaşların kibertəhlükələrdən qorunması istiqamətində mütəmadi olaraq profilaktik və maarifləndirici tədbirlər həyata keçirilir. Vətəndaşlarla görüşlərdə, sosial şəbəkələrdə yayımlanan məlumatlarda, eləcə də polis bölmələrinə müraciət edən şəxslərlə aparılan söhbətlər zamanı kiberdələduzluq hallarından qorunmağın yolları izah olunur. İnsanlara şəxsi və bank məlumatlarını tanımadıqları şəxslərlə paylaşmamaq, şübhəli keçidlərə daxil olmamaq, telefon və digər elektron cihazlarını yad şəxslərə verməmək tövsiyə edilir. Çünki bəzən bir neçə dəqiqəlik söhbət və ya sadə bir xahişin arxasında dələduzluq niyyəti dayana bilər.

*F.Məmmədova*

# KMBİ-dən növbəti uğurlu əməliyyat

### Xarici ölkələrin informasiya şəbəkələrinə hücum edənlər saxlanılıb

Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin (KMBİ) əməkdaşları tərəfindən keçirilən növbəti əməliyyat-texniki tədbirlər nəticəsində müxtəlif xarici ölkələrin informasiya sistemlərinə kiberhücumlar təşkil etməkdə şübhəli bilinən 23 yaşlı R.Feyziyev və 22 yaşlı E.Abdullazadə saxlanılıblar. Araşdırmalarla müəyyən olunub ki, saxlanılan şəxslər xarici dövlətlərə məxsus çoxsaylı veb-saytların serverlərinə müdaxilələr edərək onların idarəetmə panellərinə icazəsiz giriş əldə ediblər. Daha sonra məxfi məlumatları ələ keçirən bu şəxslər internet resurslarının əsas səhifələrində dəyişikliklər edib, özlərinə məxsus proqram təminatı yerləşdirərək nəzarətə götürüblər. Bununla da onlar ələ keçirdikləri internet resurslarının idarəetmə panellərinin satışını təşkil ediblər. Araşdırma zamanı müəyyən edilib ki, R.Feyziyev ümumilikdə 2300, E.Abdullazadə isə 179 xarici veb-sayta qanunsuz müdaxilə edərək həmin internet resurslarını ələ keçiriblər.

Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, əməliyyat-istintaq tədbirləri davam etdirilir.



# DİN-dən vətəndaşlara xəbərdarlıq

### Onlayn alış-veriş edərkən diqqətli olun

Mütəmadi olaraq aparılan maarifləndirmə tədbirlərinə və edilən çoxsaylı xəbərdarlıqlara baxmayaraq, onlayn alış-veriş zamanı vətəndaşların kiberdələduzluqla üzləşməsi halları hələ də müşahidə olunur.

Aparılan araşdırmalar və daxil olan müraciətlər göstərir ki, kiberdələduzlar saxta satış səhifələri yaradaraq müxtəlif məhsulları cəlbedici qiymətlərlə təklif edir, ödəniş alındıqdan sonra isə vətəndaşla əlaqəni kəsərək telefon nömrələrini və sosial şəbəkə hesablarını bloklayırlar.

Bu kimi halların qarşısının alınması məqsədilə vətəndaşlara internet və sosial şəbəkələrdə rastlaşdıqları satış səhifələrinin etibarlılığını əvvəlcədən yoxlamaq, tanımadıqları və etibar etmədikləri şəxslərdən məhsul sifariş etməmək, xüsusilə əvvəlcədən ödəniş tələb olunan təkliflərə qarşı diqqətli olmaq tövsiyə olunur.

Məhsul sifariş etməzdən və ödəniş həyata keçirməzdən əvvəl satıcı barədə məlumatların, əlaqə vasitələrinin və təqdim olunan səhifənin həqiqiliyinin yoxlanılması vacibdir. Etibar etmədiyiniz və ya həqiqiliyinə əmin olmadığınız səhifə və saytlara ödəniş etməyin, bank kartı məlumatlarınızı, CVV/CVC kodunu, SMS vasitəsilə göndərilən təsdiq kodlarını və digər məxfi məlumatları üçüncü şəxslərlə paylaşmayın.

Kiberdələduzluq halları ilə qarşılaşdıqda dərhal DİN-in "102" Xidməti-Zəng Mərkəzinə və ya Nazirliyin rəsmi sosial şəbəkə hesablarına müraciət edin.

# Motosiklet sürücüləri ilə profilaktik tədbirlər keçirilir

### Onlara yüksək sürət və normadan artıq səs-küyə görə məsuliyyətləri izah edilir

Sumqayıt şəhərində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, ictimai asayişin qorunması və xüsusilə gecə saatlarında sakinlərin rahatlığının pozulmasının qarşısının alınması məqsədilə növbəti nəzarət-profilaktik tədbirlər həyata keçirilib.

Sumqayıt Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə motosiklet və digər motonəqliyyat vasitələrinin sürücüləri saxlanılıb. Araşdırma zamanı ayrı-ayrı sürücülərin şəhər ərazisində, xüsusilə gecə saatlarında yüksək sürətlə hərəkət etməsi, motosikletlərin konstruksiyasına müdaxilə edərək əlavə avadanlıqlar quraşdırması, səsboğucu sistemlərində dəyişiklik etməklə normadan artıq səs-küy yaratması, eləcə də dövlət qeydiyyat nişanı və müvafiq kateqoriyalı sürücülük vəsiqəsi olmadan nəqliyyat vasitəsini idarə etməsi halları müəyyən edilib.

Aşkar edilən qayda pozuntularına hüquqi qiymət verilərək 30-a yaxın sürücü barəsində qanunvericiliyin tələblərinə uyğun inzibati tənbeh tədbirləri görülüb.

Sumqayıt Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsi tərəfindən bu istiqamətdə nəzarət-profilaktik tədbirlər mütəmadi olaraq davam etdiriləcək.

# QR-kodun arxasında nə var?

## Kiçik kvadratların böyük təhlükəsi

**Bir vaxtlar yalnız məhsulların üzərində və reklamlarda gördüyümüz QR-kodlar artıq gündəlik həyatın bir hissəsinə çevrilib. Restoran menyusundan ödənişlərə, tədbir biletlərindən müxtəlif internet səhifələrinə qədər bir çox xidmətdə QR-kodlardan istifadə olunur.**




Telefonun kamerasını həmin kvadrata yönəltmək kifayətdir ki, ekranda bir keçid açılsın. Sürətli və rahat olması QR-kodların geniş yayılmasına səbəb olub. Lakin bu rahatlığın başqa tərəfi də var: hər QR-kod təhlükəsiz deyil. İstifadəçi kodun içərisində hansı məlumatın gizləndiyini adi gözlə görə bilmir. Kod skan edildikdən sonra isə onu başqa bir internet səhifəsinə yönləndirə bilər.

### *Görünüş aldada bilər*

QR-kodların ən təhlükəli tərəflərindən biri onların zahirən bir-birindən fərqlənməməsidir. Saxta kod da, etibarlı kod da istifadəçiyə eyni görünə bilər. Dələduzlar real bir QR-kodun üzərinə başqa kod yerləşdirə və ya saxta kodu reklam, elan, dayanacaq, restoran menyusu kimi insanların diqqət etdiyi yerlərdə təqdim edə bilərlər. Şəxs kodu skan etdikdə qarşısına tanış şirkətin və ya xidmətin internet səhifəsinə bənzəyən saxta sayt çıxar. İstifadəçidən burada bank kartı məlumatlarını, parolu və ya digər şəxsi məlumatları daxil etmək tələb olunar.

### *Bir saniyəlik keçid*

QR-kodun yaratdığı əsas risklərdən biri istifadəçinin keçidin hara apardığını əvvəlcədən yoxlamamasıdır. Telefon kodu oxuduqda ekranda açılan internet ünvanına diqqət etmədən səhifəyə daxil olmaq asandır. Xüsusilə "hesabınız bloklanacaq", "hədiyyə qazandınız", "ödənişi təsdiqləyin" kimi təcili xarakterli mesajlarla birlikdə təqdim olunan QR-kodlara ehtiyatla yanaşmaq lazımdır. Dələduzluğun əsas məqsədi çox vaxt insanı düşünməyə vaxt vermədən hərəkət etdirməkdir.

### *Bank məlumatları təhlükədə*

QR-kod vasitəsilə istifadəçi saxta ödəniş səhifəsinə yönləndirilə bilər. Burada kart nömrəsi, son istifadə tarixi, CVV kodu və digər məlumatların daxil edilməsi istənilə bilər. Əgər istifadəçi bu məlumatları təqdim edərsə, şəxsi maliyyə məlumatlarının təhlükəyə düşməsi mümkündür. Buna görə ödəniş zamanı yalnız etibarlı və rəsmi mənbələrdən istifadə etmək, açılan səhifənin ünvanını diqqətlə yoxlamaq vacibdir. Heç bir texnologiya insanın diqqətini əvəz etmir. QR-kodun rahat olması onun avtomatik olaraq təhlükəsiz olduğu anlamına gəlmir.

### *Küçədəki kod da təhlükə yarada bilər*

QR-kodlarla bağlı risk yalnız internetdə və ya elektron məktublarda yaranmır. Küçədə, mağazada, restoranlarda, elan lövhələrində və digər ictimai yerlərdə yerləşdirilən kodlar da saxtalaşdırıla bilər. Məsələn, hansısa xidmət üçün yerləşdirilmiş rəsmi QR-kodun üzərinə başqa kod yapışdırılması mümkündür. İstifadəçi isə bunun fərqinə varmadan kodu skan edə bilər. Bu səbəbdən ictimai yerlərdə QR-koddan istifadə edərkən onun üzərində sonradan yapışdırılmış əlavə kağız və ya stiker olub-olmamasına diqqət etmək faydalıdır.

QR-koddan istifadə edərkən bir neçə sadə qaydaya əməl etmək riski azaltmağa kömək edə bilər. Kod skan edildikdən sonra açılan internet ünvanına baxmaq, tanımadığımız və şübhəli saytlara daxil olmamaq, kart və hesab məlumatlarını hər səhifədə paylaşmamaq vacibdir. Əgər QR-kod gözlənilmədən mesajla göndərilibsə və istifadəçidən hesabına daxil olmaq və ya ödəniş etmək tələb olunursa, həmin məlumatı ayrıca rəsmi mənbədən yoxlamaq daha təhlükəsizdir. Şübhəli vəziyyətdə ən doğru addımlardan biri prosesi dayandırmaqdır. Çünki bir neçə saniyəlik ehtiyat sonradan yaranacaq böyük problemin qarşısını ala bilər.

### *Kiçik kod, böyük məsuliyyət*

Beləliklə, QR-kodlar müasir həyatımızı xeyli asanlaşdırıb. Menyuya baxmaq, bilet əldə etmək, ödəniş etmək və müxtəlif xidmətlərdən istifadə etmək üçün saniyələr kifayət edir. Lakin texnologiyanın imkanlarından istifadə etdikcə onun yaratdığı riskləri də nəzərə almaq lazımdır. QR-kodun özündə təhlükə olmaya bilər, amma onun arxasında istifadəçini saxta səhifəyə aparan keçid gizlənir. Ona görə növbəti dəfə telefonunuzun kamerasını kiçik kvadratlara yönəldərkən bir neçə saniyə dayanıb düşünmək faydalıdır: "Bu kod məni hara aparacaq?" Çünki rəqəmsal dünyada bəzən ən böyük təhlükə gözə çox kiçik görünür. Belə təhlükələrdən biri də ictimai yerlərdə pulsuz "Wifi" xidmətindən istifadə zamanı baş verməriski var. Hər iki halda kiçik ehtiyatsızlıq sizə zərər vura bilər.

*A.Tahirova*

# İspaniyada təhlükəli britaniyalı cinayətkar saxlanılıb

## Odlu silah və narkotik qaçaqmalçılığında ittiham olunan şəxsə qarşı xüsusi əməliyyat keçirilib




İspaniyanın Kosta Blanka ərazisində Böyük Britaniyada ağır cinayətlərdə ittiham olunan 27 yaşlı Böyük Britaniya vətəndaşı saxlanılıb. İspaniya Milli Polisinin məlumatına görə, odlu silahla törədilən cinayətlər və narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən şəxs "son dərəcə təhlükəli" hesab olunub. Böyük Britaniya hüquq-mühafizə orqanları tərəfindən iyun ayında onun barəsində beynəlxalq axtarış elan edilib. Bir neçə gün davam edən əməliyyat-axtarış tədbirləri nəticəsində 27 yaşlı şəxsin yeri müəyyən edilib. Polis əməkdaşları tərəfindən keçirilən xüsusi əməliyyat zamanı şübhəli şəxs gizləndiyi evin yaxınlığında saxlanılıb.

İstintaq materiallarına əsasən, o, 2023–2024-cü illərdə narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil etməkdə və odlu silahdan istifadə ilə nəticələnən ağır cinayətlər törətməkdə ittiham olunur.

# ABŞ-da elektrik mühərrikli patrul avtomobilləri sınaqdan keçirilir

## Yeni xidməti nəqliyyat vasitələrinin üstünlükləri araşdırılır




Bir vaxtlar avtomobil ixtira edilərkən bunun atmosfer çirkliliyinə səbəb olacağı, daha doğrusu karbon qazının atmosferdə çoxalmasının bir səbəbinin də avtomobillər olacağı heç kəsin ağlına gəlməzdi. Ancaq müasir dövrdə bu problem o qədər ciddi xarakter aldı ki, iri şəhərlər, meqapolislər elektriklə işləyən və beləliklə ətraf mühitə az zərər vuran nəqliyyat vasitələrinə keçməyə üstünlük verdilər. İndi, hətta dövlət qurumlarının avtomobilləri də yeni tələblərə uyğunlaşdırılır və ilk addım ABŞ-da atılıb.

Belə ki, ABŞ-ın Merilend ştatında yerləşən Hayattsvill Polis Departamenti patrul xidmətində elektrik mühərrikli avtomobillərdən istifadə imkanlarını araşdırır. Bu məqsədlə departament ötən il iki elektrikli patrul avtomobilinin iştirakı ilə pilot layihəyə başlayıb.

Sınaq çərçivəsində 2024-cü il istehsalı olan "Chevrolet" markalı avtomobillərdən istifadə olunur. Bu maşınlar xüsusi olaraq hüquq-mühafizə orqanları üçün komplektasiya edilib və gündəlik patrul xidmətinin təşkili üçün uyğunlaşdırılıb. Layihənin əsas məqsədi daxili yanma mühərriki ilə işləyən patrul avtomobillərdən imtina etməkdir. Pilot layihə çərçivəsində avtomobillərin xidmət zamanı effektivliyi, batareyanın enerji sərfiyyatı, yürüş məsafəsi və hava şəraitinin avtomobilə təsiri sınaqdan keçiriləcək. Sınaq müddətinin sonunda əldə edilən nəticələr hərtərəfli təhlil ediləcək və avtomobil parkının bütünlüklə elektrikli nəqliyyat vasitələrinə keçirilib-keçirilməyəcəyinə qərar veriləcək.

# Qılınc yarası sağalar, söz yarası sağalmaz

## Empatiya itəndə laqeydlik və yanlış davranış hansı nəticələrə gətirib çıxarır?

İnsanlar arasında münasibətlərin formalaşmasında empatiyanın xüsusi yeri var. Qarşımızdakı insanın nə hiss etdiyini anlamaq, onun yerinə özümüzü qoymaq və davranışımızın onda hansı təsir yaradacağını düşünmək bizi bir çox yanlış addımdan çəkindirə bilər. Bəs insan qarşısındakının hisslərini görməzdən gələndə nə baş verir? Birinə deyilən sərt söz, sosial şəbəkədə yazılan alçaldıcı şərh, məktəbdə bir uşağın qrupdan kənarlaşdırılması və ya kiminsə zəif vəziyyətindən istifadə edilməsi ilk baxışda fərqli hadisələr kimi görünür. Əslində isə onların ortaq bir tərəfi var: qarşı tərəfin hisslərinin nəzərə alınmaması.

### ►İnsan qarşısındakını nə vaxt "görmür"?

Empatiya insanın öz hisslərindən başqa, qarşısındakının yaşadıqlarını da nəzərə almasına kömək edir. Lakin qəzəb, nifrət, şəxsi maraq və ya güc hissi bu qabiliyyətin önünə keçəndə insan qarşısındakı şəxsin yaşadığı hisslərə əhəmiyyət vermir. Belə vəziyyətdə qarşı tərəfin qorxması, incimə və ya alçaldılması həmin şəxs üçün əhəmiyyətsiz görünür. "Mən sadəcə zarafat etdim", "O qədər də ciddi deyil" kimi düşüncələr isə göstərilən davranışın nəticəsini kiçiltməyə səbəb olur. Halbuki bir insan üçün adi görünən söz və ya hərəkət başqa biri üçün uzun müddət unudulmayan hadisəyə çevrilir.

### ►Kütlənin içində məsuliyyət azalırmı?

Təhqir, təhdid, alçaltma və davamlı təzyiq də insan üzərində iz buraxır. Xüsusilə bu davranışlar təkrarlandıqda insan özünü müdafiəsiz hiss edir. Müasir dövrdə bu problem sosial şəbəkələrdə daha fərqli formada özünü göstərir. Ekranın arxasında olan insan qarşısındakının üz ifadəsini və reaksiyasını görmədiyi üçün yazdığı sözün təsirini daha az hiss edir. Bir paylaşımın altında yazılan təhqiramiz şərh bir neçə saniyəyə yazılır, lakin həmin sözlərin yaratdığı təsir daha uzun davam edir.

Sosial şəbəkələrdə bir nəfər kimisə təhqir edir, digərləri ona qoşulur, başqaları isə sadəcə izləyir. Bir müddət sonra qarşı tərəfə yönəlmiş təzyiq bir insanın davranışı olmaqdan çıxaraq kütləvi reaksiyaya çevrilir. İnsan "hamı edir" düşüncəsi ilə öz davranışına daha az məsuliyyət daşıdığını düşünür. Lakin kütlənin içində olmaq heç kimi etdiyi hərəkətin nəticəsindən azad etmir.

Empatiyanın zəifləməsi öz-özlüyündə cinayət demək deyil. Lakin başqa insanın hüquqlarına və hisslərinə laqeyd yanaşma müəyyən hallarda daha ciddi davranışların yaranmasına şərait yaradır.

### ►Qarşındakının yerində olsaydın…

Zorakılıq, təhdid, təqib, dələduzluq və digər hüquqazidd əməllərin arxasında müxtəlif səbəblər dayana bilər. Onların hamısını yalnız empatiyanın olmaması ilə izah etmək mümkün deyil. Ancaq qarşı tərəfin yaşadığı ağrını və qorxunu nəzərə almamaq belə davranışların qarşısını alan mənəvi maneələri zəiflədir. Bu baxımdan empatiya yalnız xoş münasibətin deyil, sağlam cəmiyyətin də vacib elementlərindən biridir. İnsan davranışının nəticəsini düşünməyin ən sadə yollarından biri özünü qarşı tərəfin yerinə qoymaqdır. "Bu söz mənə deyilsəydi, necə hiss edərdim?", "Mənim ailə üzvüm belə münasibətlə qarşılaşsaydı, nə düşünərdim?", "Bu hərəkət mənim başıma gəlsəydi, necə reaksiya verərdim?" kimi suallar bəzən davranışı dəyişmək üçün kifayət edir.

Empatiya bütün problemləri həll edən sehrli vasitə deyil. İnsanlar arasında münaqişələr həmişə olacaq. Fikir ayrılığı, qəzəb və narazılıq da həyatın bir hissəsidir. Əsas məsələ həmin hisslərin başqa insana zərər verən davranışa çevrilməsinə imkan verməməkdir.

Cəmiyyətin təhlükəsizliyi yalnız qanunlarla və qaydalarla formalaşmır. İnsanların bir-birinə münasibəti də bu təhlükəsizliyin mühüm hissəsidir. Bəzən başqa insana zərər verməməyin ilk addımı çox sadədir: özümüzü bir anlıq onun yerinə qoymaq. Çünki qarşımızdakı insanın hisslərini görə bildiyimiz anda onun üçün "sadəcə bir söz"-ün bizim üçün də adi olmadığını anlayırıq.

*Aytən Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik